14 fevral 2024-cü il

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

# Beynəlxalq təşkilat Azərbaycanın terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəsini yüksək qiymətləndirib

**Respublikamızda terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin araşdırılması meyarı üzrə nəticələr yüksək dəyərləndirilib. Uzun müddətdir ki, gözlənilən, Avropa Şurasının "Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi"nin (MONEYVAL) Azərbaycan üzrə qiymətləndirmə nəticələrinə görə hesabatda bu, təsdiqlənib.**

Azərbaycan ən çox işğaldan, terrorizmdən əziyyət çəkən ölkələrdən biridir. Qəsbkar, təcavüzkar Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı Qarabağ və Şərqi Zəngəzur ərazilərimizdə apardığı mina terroru hələ də ağır nəticələr verməkdədir...

2020-ci il sentyabrın 27-də işğalçı ölkənin silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsi rəşadətli Azərbaycan Ordusunun Zəfəri ilə başa çatdı. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli Bəyanat imzalandı. Ancaq Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi, uzun illər boyu minaladığı ərazilərimizin dəqiq xəritəsini verməkdən boyun qaçırdı. Üstəlik İkinci Qarabağ müharibəsindən üç il sonra, ötən ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinədək erməni terrorçuları həmin bölgələrdə minalar basdırmaqda davam etdilər.

Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) verdiyi məlumata görə, 2020-ci ilin noyabr ayından bəri Azərbaycanda mina və partlamamış hərbi sursat qurbanlarının sayı 345-ə çatıb: "Baş verən mina hadisələrinin statistikasına nəzər salsaq, təkcə keçmiş təmas xətti boyu ərazilərin deyil, eyni zamanda yaşayış məntəqələrinin, əkin sahələrinin, çay kənarlarının, meşə massivlərinin, məzarlıqların minalarla yüksək səviyyədə çirkləndiyinin şahidi oluruq. İkinci Qarabağ müharibəsindən sonra 345 nəfər mina qurbanından 247 nəfəri keçmiş təmas xəttindən kənarda baş verən mina hadisələri nəticəsində həlak olub və ya müxtəlif dərəcədə bədən xəsarətləri alıb". ANAMA-dan bildirildi ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir.




Uzun illərdir ki, bu cür ağır cinayətlərlə, Ermənistanın mina terroru ilə üzləşmiş Azərbaycanın terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə yüksək səviyyədə effektivliyə nail olması diqqətəlayiqdir. Avropa Şurasının "Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi"nin hesabatında bildirilib: "MONEYVAL qeyd edir ki, Azərbaycan terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə yüksək səviyyədə effektivliyə nail olub və hakimiyyət orqanları terrorçuluğu maliyyələşdirmə cinayətlərinin istintaqını uğurla aparmaq bacarıqlarını nümayiş etdiriblər. (Müvafiq qiymətləndirmə dövründə yeddi belə iş üzrə məhkumetmə həyata keçirilib). Eyni ilə beynəlxalq əməkdaşlıqda Azərbaycan yüksək effektivliyə nail olub, konstruktiv yardım göstərmək və digər ölkələrə müraciət etmək üçün dövlət orqanlarının imkanları yüksək qiymətləndirilib".

Nəzərə çatdıraq ki, MONEYVAL tərəfindən terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin araşdırılması üzrə Azərbaycanda görülən işlər ilk dəfədir ki, yüksək qiymətləndirilir.

Terrorçuluğun maliyyələşdirilməsi və əlaqəli cinayətlərlə bağlı son illər Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aparılmış cinayət işləri üzrə nəticələr üzv dövlətlərin analoji orta statistikasını əhəmiyyətli dərəcədə aşır.

MONEYVAL-ın hesabatında son beş il ərzində Azərbaycanda bir neçə qiymətləndirmə meyarı üzrə görülmüş işlər, əldə edilmiş nailiyyətlər qiymətləndirilərək məqbul hesab edilməklə, gələcəkdə bu sahələr üzrə qarşıda duran işlərə dair tövsiyələr yer alıb.

Diqqətə çatdıraq ki, Azərbaycan Respublikası MONEYVAL tərəfindən son bir il ərzində göstəricilərinə görə qiymətləndirmə hesabatları dərc edilmiş ölkələr sırasında terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin araşdırılmasının effektivliyi üzrə yüksək göstərici olaraq qiymətləndirilən yeganə dövlət olub.

Hesabatda həmçinin vurğulanıb ki, mürəkkəb geosiyasi məkanda olmasına baxmayaraq, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə istiqamətində son illər aparılan qətiyyətli işlər Azərbaycana beynəlxalq arenada investisiya və turizm üçün cəlbedici ölkə, dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi, "təhlükəsizlik adası" imicini qazandırıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*